# AHİK bir ilin hesabatını verdi



Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) təşkil olunmuş mətbuat konfransı həmkarlar ittifaqlarının fəaliyyətində son bir il ərzində tətbiq edilən yenilikləri, həyata keçirilən layihələri əks etdirən videoçarxın nümayişi ilə başladı.

Sonra AHİK nümayəndələri tərəfindən media mənsublarına həmkarlar ittifaqlarının fəaliyyəti, əmək hüquqlarının qorunması, əməyin təhlükəsizliyi, layiqli iş şəraitinin yaradılması istiqamətində reallaşdırılan tədbirlər və sosial layihələr barədə ətraflı məlumat verildi. Qeyd olundu ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının 2025-2027-ci illər üzrə inkişaf strategiyası təsdiq edilib. Hazırda isə strategiyanın reallaşdırılması üçün 7 prioritet, 12 fəaliyyət istiqaməti və 36 tədbiri əhatə edən tədbirlər planı icra olunur.

Bildirildi ki, konfederasiyada "Çağrı Mərkəzi", Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzi, həmçinin "Kurort" Turizm İnformasiya Mərkəzi fəaliyyətə başlayıb. Konfederasiyanın sanatoriya və istirahət mərkəzlərində yenidənqurma və təmir işləri aparılır, şərait yaxşılaşdırılır. Qida təminatı sahəsində də yeniliklər edilib, menyular qida təhlükəsizliyi standartlarına uyğunlaşdırılıb, sanitariya və gigiyena qaydalarına nəzarət gücləndirilib.

Sanatoriya və istirahət mərkəzlərinə yollayışların verilməsi prosesində şəffaflığın, operativliyin və əlçatanlığın təmin olunması məqsədilə e-ahik Sanatoriya-Kurort Elektron Rezervasiya Sistemi istifadəyə verilib. 2025-ci il yanvarın 1-dən iyulun 31-dək 32 minə yaxın yollayış verilib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 1,5 dəfə çoxdur.

Media təmsilçilərinə "AHİK könüllüləri", "Layiqli Əmək Səfirləri", "Həmkardan həmkara qayğı ilə", "Sağlamlığa doğru qaç", "Görməyə dəyər" layihələri barədə məlumat verildi. Bildirildi ki, yeni layihə - "AHİK Plus" üzərində də iş aparılır. Layihə sosial tərəfdaşlarla birgə rəqəmsal platforma vasitəsilə həyata keçiriləcək. "AHİK Plus" çərçivəsində həmkarlar ittifaqı üzvləri üçün bonuslar, endirimlər və xüsusi güzəştlər nəzərdə tutulur.

Tədbirdə media nümayəndələri Əmək və Sosial Münasibətlər Akademiyasında tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində aparılan işlər barədə də məlumatlandırıldı. Belə ki, akademiyada 5 ixtisas üzrə bakalavr, 2 ixtisas üzrə magistr təhsili həyata keçirilir. Ali təhsil ocağında ittifaq üzvlərinin bilik və bacarıqlarının artırılması, ixtisasartırma kurslarının təşkili, həmçinin dövlət qurumları və özəl sektorun sifarişi əsasında təlimlərin keçirilməsi məqsədilə İxtisasartırma və Kadrların İnkişafı Mərkəzi yaradılıb.

Tədbirdə vurğulandı ki, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban verən şəhidlərin ailələrinə, qazilərə və müharibə iştirakçılarına dəstək məqsədilə tədbir həyata keçirilir, layihələr reallaşdırılır. Qeyd edildi ki, konfederasiyanın himayəsində olan 209 şəhid ailəsinin 378 övladına hər ay maddi yardım göstərilir. 148 şəhid ailəsinə isə alış-veriş kartları təqdim edilib. Bundan başqa, 20 Yanvar şəhidlərinin 95 ailə üzvünə birdəfəlik maddi dəstək göstərilib. Bu istiqamətdə reallaşan layihələr çərçivəsində şəhid övladları üçün "Abşeron" sanatoriyasında "Texno Qəhrəmanlar" master-klası təşkil olunub.

Konfederasiya və üzv təşkilatlar tərəfindən Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, Yeni il, Novruz bayramları və digər əlamətdar günlər münasibətilə mədəni-kütləvi tədbirlər təşkil olunur. Üzvlərin asudə vaxtının səmərəli keçirilməsi üçün teatr tamaşalarına, konsert proqramlarına kollektiv baxış, həmçinin idman yarışları da bu sıradandır. Həmin tədbirlər çərçivəsində həmkarlar ittifaqı üzvlərinin uşaqlarına 800 minə yaxın hədiyyə təqdim edilib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 2 dəfə çoxdur.

Media nümayəndələrinə AHİK-in beynəlxalq əməkdaşlıq sahəsində gördüyü işlər, beynəlxalq həmkarlar ittifaqları ilə əlaqələri barədə də ətraflı məlumat verildi.

Sonda jurnalistləri maraqlandıran suallar cavablandırıldı.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.-13 avqust (№ 168).- S.11.